RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN

23 avqust 2024-cü il

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana dövlət səfəri

# Azərbaycan-Özbəkistan qardaşlığı, dostluğu, birliyi sarsılmazdır

## Ümummilli Lider Heydər Əliyevin xatirəsinə ehtiram








**Avqustun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Daşkənddəki Heydər Əliyev meydanında Ümummilli Liderin barelyefi önünə gül dəstələri qoyublar.**

AZƏRTAC xəbər verir ki, Daşkəndin Mirabad rayonunda yaradılan Heydər Əliyev meydanının və Ulu Öndərin burada ucaldılmış barelyefinin 2022-ci il iyunun 21-də açılışı olub. Ərazisi tamamilə yenidən qurulan meydanda yaşıllıq salınıb, sakinlərin istirahəti üçün hər cür şərait yaradılıb.

Həmin il Özbəkistanda dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Ulu Öndərin barelyefinin açılışında iştirak ediblər.